**UOT 745/749**

**Sevinc Qurbanova**
**Azərbaycan Dövlət Rəssamlıq**
**Akademiyasının doktorantı**
**AZ1029, Bakı, H.Əliyev pr. 26**
**E-mail:**sevincadra1@mail.ru

# XIX ƏSR DEKORATİV-TƏTBİQİ SƏNƏT NÜMUNƏLƏRİNİN DEKORUNDA YENİ BƏDİİ MEYLLƏRİN TƏZAHÜRÜ

**Xülasə**: Məqalə dekorativ-tətbiqi sənət nümunələrinin yaranma və inkişaf tarixinin tədqiqinə həsr olunmuşdur. Bu inkişaf tarixində mühüm dönüş nöqtəsi sayılacaq XIX əsr tədqiqatın obyekti kimi seçilmişdir. Azərbaycan ictimai-siyasi həyatında ciddi dəyişikliklərlə müşayiət olunan XIX əsrin əvvəllərində baş verən hadisələr dekorativ-tətbiqi sənət nümunələrinin dekorunda da yeni bədii meyllərin inkişafına səbəb olmuşdur. Bu yeniliklər və dəyişikliklər əsasən dekorativ-tətbiqi sənətin estetikasına Qərb-Avropa və rus meyllərinin gətirilməsi ilə nəticələndi. Xüsusilə dekorativ-tətbiqi sənətin – xalçaçılıq, tikmə, boşqab, nəlbəki, sürahi, dibçək və kaşı kimi məişət əşyalarının inkişafında yeni meyllərin üzə çıxmasını müşahidə etmək mümkündür. Məqalədə bu məsələlər konkret nümunələr əsasında geniş tədqiq edilmişdir.

**Açar sözlər:** Bədii metal, xalça, rəngkarlıq, təsvir, miniatür, süjet, dekor.

XIX əsrin ilk qərinəsində Azərbaycanın ictimai - siyasi həyatında baş verən ciddi dəyişikliklər – onun Rusiya və İran arasında bağlanan müqavilələrlə ikiyə bölünməsi bütün sahələr kimi incəsənətin də əvvəlkindən fərqli bədii prinsiplərlə inkişafını şərtləndirmiş oldu. 1813 və 1828-ci illərdə bağlanmış bu müqavilələrə qədər də Azərbaycan təsviri və dekorativ - tətbiqi sənətinin estetikasında da duyulası dəyişikliklər baş verdi. Başqa sözlə desək, XVII əsrdən başlayaraq klassikləşmiş miniatür rəngkarlığının bədii tutumunda Qərb-Avropa təzahürlərinin tədricən çoxalması ilə ərsəyə gətirilən sənət nümunələri fərqli estetika ilə tanınmağa başladılar. XVIII əsrin sonlarından başlayaraq bədii proseslərdə müşahidə olunan bütün bu dəyişikliklərin tədqiqatçılar tərəfindən "Qacar üslubu" kimi dəyərləndirmələri də təbii idi. Belə ki, Qacarlar sülaləsinin hakimiyyəti illərində yerli rəssamların Avropa incəsənəti ilə tanışlığı baş tutmuş, hökmdarlar isə fərdi gözəllik duyumlarının formalaşmasında Qərb estetikasına meylli olduqlarını sərgiləmişdilər. Milli bədii məkanda klassik miniatür ənənələrindən istifadə qalsa da, yeni üslubun bir ifadə vasitəsi kimi çox böyük əhəmiyyət kəsb etdiyini XİX - XX əsrlərin monumental divar rəngkarlığı, kitab miniatürləri və dekorativ - tətbiqi sənət əsərləri də təsdiqləyir. Əlavə edək ki, yarandığı vaxtdan sonrakı dövrlərə daşınan bu üslub mövcud olduğu zamanda klassik miniatür ənənələri ilə rəqabətini davam etdirməklə yanaşı, özünəməxsus estetikasını "üslublar məcmusu" kimi tanınan XX yüzilliyə belə

ötürə bilmişdir. Buna şərh edəcəyimiz sənət nümunələrinin timsalında da əmin olmaq mümkündür...

XIX əsrdə miniatür rəngkarığı estetikasının özünü daha qabarıq göstərdiyi sahələrdən biri də xalçaçılıq olmuşdur. Bu ilk növbədə dekorativ - tətbiqi sənətin bu növünün ölkədə çox geniş yayılması ilə bağlı olmuşdur. Müxtəlif ölçülərdə toxunmuş süjeti xalçaların dekorunda həm klassik, həm də "Qacar üslubu" estetikası ilə səsləşən bədii tutumun mövcudluğu da dediklərimizi təsdiqləyir.

Qeyd etmək lazımdır ki, miniatür rəngkarlığının estetikasından istifadəyə bütün əsr boyu toxunan "Ovçuluq", "Dörd fəsil" və "Həyat ağacı" kimi kompozisiyalarla yanaşı, klassik Şərq ədəbiyyatına, xüsusilə də mövzusu Nizami motivlərindən qaynaqlanan çoxsaylı xalçalarda rast gəlinir. Süjetli xalçaların təşəkkül tarixinə nəzər yetirsək, bu cür toxuculuq nümunələrinin daha çox cəmiyyətin imkanlı təbəqələrinin sifarişi ilə yarandığını qeyd etməliyik. Əlavə edək ki, zaman - zaman yaradılan ornamental xalçalar nə qədər onun yaradıcılarının duyğu və düşüncələrini, bir çox hallarda hətta arzu və istəklərini şərti-rəmzi tutumda ifadə edirdisə, süjetli xalçalar həm də xalqın həyatının və məişətinin müxtəlif sahələrini özündə əks etdirməklə, onunla təmasda olanlarda informasiya əyaniliyi yaratmış olurdular. Zamanında dünyada Azərbaycanın "tanınma nişanı"na çevrilən Nizami Gəncəvi "Xəmsə"sinin ilmələrlə gerçəkləşən motivlərinin bu günümüzə qədər dekorativ - tətbiqi sənətin digər növləri kimi, xalçaçılığın da aparıcı mövzularından olması da gözoxşayan naxışlarla vəhdətdə ərsəyə gətirilən poema qəhrəmanlarının misralarda hifz olunan yaşantılarına ovqatyaradıcı və təsirli "bədii güzgü" tutmaq baxımından önəm kəsb etməsi danılmazdır. Başqa sözlə desək, Nizami dünyasına orta əsrlərdən başlayan ümumxalq marağı və məhəbbəti XIX yüzillikdə də yeni vüsətlə davam etdirilmişdir. Bu yerdə qeyd edək ki, Nizami Gəncəvi mövzusuna daha çox həmin dövrün Təbriz qrupuna aid xalçalarında rast gəlinir. Belə ki, həmin qrupun bədii - texniki imkanları, daha dəqiq desək, ilmələrin sıxlığının yüksək olması süjetləri daha dəqiq və ifadəli təqdim etməyə imkan verirdi.

1810-cu ildə Təbrizdə toxunan və hazırda Bakıda – Nizami Gəncəvi adına Azərbaycan Milli Ədəbiyyatı muzeyində nümayiş olunan "Leylinin Məcnunla görüşü" xalçasında bütünlükdə miniatür ənənələrinə istinad edilsə də, əslində, burada ifadə dilinin zamanına görə yeni - daha çox dekorativ - şərti tutum almasını müşahidə edirik. Bu şərtilikdə müəyyən qədər primitiv sənət estetikasına yaxınlığın duyulması isə, bir qədər düşündürücü - mükaliməyə yol açan haldır. Belə ki, miniatür rəngkarlığı ənənələrinə klassik yanaşmanın öləzidiyi halda bu cür - bədii həll sadəliyi yüksək professionallıqan daha çox, çeşnisi el sənətkarları tərəfindən ərsəyə gətirilən xalçaları xatırladır. Bununla belə onun özünəməxsus kompozisiyaya malik olması danılmazdır. Ara sahənin bir qədər xaotik görünən kompozisiyasını təşkil edən müxtəlif ayrıntıların - ağacın yaxınlığında təsvir olunmuş Leyli və Məcnunla yanaşı, günəş, çoban, qoyun, quş, keçi, ilan, dəvə, it və şir təsvirlərinin miniatürlə səsləşən dekorativ tutumda yer alması ilk növbədə motivin təbiiliyinin əldə olunmasına xidmət edir. Asimetrikliyi ilə diqqət çəkən komozisiyanın mərkəzinə yaxın hissədə nisbətən iri təsvir olunmuş Leylinin tünd yaşıl rəngli geyiminin hicran qəmindən əridiyi görünən Məcnunun uzanmış fiqurunun daha da qabarıqlığını təmin etmişdir. Şəkəri yerlikdə isti rənglərlə görüntüyə gətirilmiş təsvirlərin qəhvəyi haşiyədə ərəb əlifbası ilə yazılışının da xalçanın bütövlüyünə güclü təsiri olmuşdur...

Azərbaycan Milli İncəsənət Muzeyinin kolleksiyasında saxlanan “Leyli və Məcnun” xalçasının kompozisiya həllində və bədii şərhində “Nizami muzeyi”ndəki əsərlə oxşarlıq təşkil edən məqamlar mövcuddur. Bədii - texniki baxımdan icrası el sənətkarları tərəfindən yerinə yetirildiyi şübhə doğurmayan bu xalçada Məcnun səhrada heyvanlarla təsvir olunmuşdur. Nakam məhəbbət dastanının əsas məna - məzmun daşıyıcısı olan Məcnun obrazının kompozisiyada dominant rolunu oynaması - digər fiqurlardan miqyaslı təsviri ilə duyulmaqdadır. Onun iri ağac altında ceyranla təsviri yuxarıdan və aşağı hissədən məişət qayğıları ilə məşğul olan insanların və şirin, körpü və ağacların təsvirləri ilə əhatələnmişdir. Məcnuna göz qoyan Leylinin yaxınlıqda təsviri isə ümumi bədii tutuma bədii -psixoloji çalar əlavə etmişdir. Bu xalça həm də iri haşiyəsində insan, heyvan, quş, ağac və bitki təsvirlər olunması ilə həmin dövrün bütün xalçalarından fərqləndiyini sərgiləyir. Əlavə edək ki, bu xalçada bir - birinə yaxın - sumağı, qəhvəyi, qızılı, açıq yaşıl və şəkəri çalarlardan istifadə kolorit bütövlüyü - miniatürsayağı harmoniya yaratsa da, arzulanan aydınlığın əldə olunmasına yardımçı olmaqdan uzaqdır. “Leyli və Məcnun” ünvanlı “Məcnun danışan ağacın qarşısında” xalçasının estetikasında da yuxarıda vurğuladığımız bədii yanaşma ilə səsləşən məqamlar duyulmaqdadır. Başqa sözlə desək, 1840-cı ildə Herisdə toxunan və hazırda şəxsi kolleksiyada qorunan bu toxuculuq nümunəsində də miniatür rəngkarlığından qaynaqlanan estetik tutumun yeni bədii məziyyətlərlə zənginləşməyə meyllilik qabarıq görünür. Etiraf edək ki, bunun o qədər də asan olmadığının qarşlığında, müşahidə etdiyimiz bədii stilizənin özünəmxsusluğu XIX əsrdə dekorativ - tətbiqi sənətdə də yer almağa başlayan yeni bədii təzahürlərin ifadəsi kimi diqqət çəkir. Yuxarıda şərh etdiyimiz xalçalardan fərqli olaraq ara sahəsi dəqiqliyi ilə seçilən, bir qədər də “Ağaclı” kompozisiyası ilə anım yaradan bu xalçanın mərkəzi hissəsini budaqlarında quşlar oturmuş iri ağac təsviri ilə yanaşı, onu iki tərəfdən əhatələyən Məcnunun və əlində quş tutmuş kişinin fiquru təşkil edir. Tünd qırmızı yerlikdə şəkəri çalarla təqdim olunmuş təsvirlərin qabarıqlığı ilə xalçanın iri haşiyəsindəki nəbati naxışlarla ahəngdarlıq təşkil etməsi də məqsədli olub, bilavsitə, ümumi kompozisiyanın bütövlüyünün əldə olunmasına xidmət edir...XIX əsrdə ərsəyə gətirilən xalçalarda vaxtaşırı “Xosrov və Şirin” poemasına müraciətlər də təsadüfi olmayıb, ilk növbədə orada baş verən hadisələrə cəmiyyətin marağının nəticəsini ifadə etmişdir. “Fərhadın ölümü” və “Xosrov və Şirin” (hər ikisi Nizami Gəncəvi adına Azərbaycan Milli Ədəbiyyatı Muzeyində saxlanılır) xalçaları da vurğuladığımız səbəbərdən yaranmışdır.

“Fərhadın ölümü” xalçasının bədii tutumunu şərtləndirən ifadə estetikasında yuxarıda şərh etdiyimiz əsərlə səsləşən yanaşma duyulur. Bu da klassik miniatür rəngkarlığı bədii prinsiplərinə yaradıcı münasibət göstərməklə, onun bədii şərhini “xalça dili”nə müvafiq – bir qədər şərti-dekorativ tutuma uyğunlaşdırmaqdan ibarət olmuşdur. Bu cür şərh estetikasındakı incəliyə görə Səfəvi dövrü xalçaları ilə müqayisə olunan olmasa da, ənənəyə yeni yanaşma baxımından maraqlı və özünəməxsusdur. “Fərhadın ölümü” xalçasında ara sahəni tutan süjetin cəlbediciliyinə nail olmaq üçün naməlum müəllif, məna - məzmun daşıyıcaları olan əsas fiqurları kompozisiyanın aşağı yarısında cəmləşdirmişdir. Yuxarı hissəni tutan və tağ formalı naxışların arasında təqdim olunan qədim memarlıq tikililərinin incə çalarlarla təsviri qarşılığında, aşağıda Fərhad və Şirini, eləcə də onu müşaiyət edənlərin nisbətən tünd – qar, qəhvəyi, yaşıl və sarımtıl rənglərlə təsviri daha cəlbedici görünür. Elə bu düzbucaq formalı kompozisiyanı əhatləndirən

haşiyələrin qızılı koloritində də mərkəzi hissənin bütövlüyünün əldə olunmasına xidmət edən estetik məziyyətlər kifayət qədərdir. Bu estetikada miniatür rəngkarlığından gəlmə rəng və bədii yozum əlamətlərinin yeni bədii dəyər almasının və bunun xalçanın gözoxşayanlığına xidmət etməsinin əldə olunmsını onun yaradıcısının uğuru hesab etmək olar. Miniatür rəngkarlığı estetikasının müşahidə olunduğu XIX əsr xalçaları arasında Şərqin digər söz xiridarlarına həsr olunmuş toxuculuq nümunələrinə də rast gəlmək mümkündür. Bu mənada Ömər Xəyyama həsr olunmuş xalçanın adını çəkmək olar. Təbrizdə toxunan və hazırda şəxsi kolleksiyada saxlanan bu xalçanın bədii həllində miniatür rəngkarlığı estetikasına realist - gerçəkçi sənət ənənələrinin qatılmasının nəticələrinə şahidlik etmək mümkündür. Özünün ilham pərisi ilə çiçəkli ağac altında oturmuş şairin səciyyəvi cizgilərə malik obrazı cəlbedici və gözoxşayandır. Ara sahəni təşkil edən arx kənarı, gül - çiçəyə bələnmiş düzənlik, budaqlarda qərarlaşan quşlar, Ömər Xəyyam poeziyasından götürülmüş misralar nikbin koloritli xalçaya əlavə ovqatdaşıyıcı çalarlar qatmaq gücündədir. Yuxarıda şərh etdiyimiz Nizami Gəncəvi ünvanlı - bədii dili daha çox dekorativləşmiş xalçalarla müqayisədə XIX əsrin sonlarında ərsəyə gətirilmiş bu xalçada gerçəkçi prinsiplərin peyda olması, heç şübhəsiz, Azərbaycan incəsənətində realizm ənənələrinin güclənməsi ilə bağlı olmuşdur.

Ömər Xəyyamın obrazına XIX əsrin ikinci yarısında toxunduğu ehtimal olunan daha bir xalıda rast gəlinir. Hazırda Azərbaycan Milli İncəsənət Muzeyinin kolleksiyasında saxlanan bu əsər Təbrizdə ərsəyə gətirilib. Onun dominant nöqtəsini Ömər Xəyyamla sevgilisinin təsviri təşkil etsə də, kompozisiya həllinə görə onu "İlin fəsilləri" adlandırırlar. Bu da səbəbsiz deyil. Belə ki, əgər xalının dominantı - mərkəzi medalyonu Ö.Xəyyamla bağlıdırsa, ara sahənin qalan hissəsini ilin dörd fəslinin obrazlı təsviri tutur. Bu süjetlər hər bir fəslin səciyyəvi xüsusiyyətlərini özündə yaşadan süjetli komozisiyalardan ibrətdir. Odur ki, xalı ilk növbədə kompozisiyasının mürəkkəbliyi ilə cəlb edir. Əlavə edək ki, bu mürəkkəbliyi şərtləndirən səbəblərdən biri xalının enli haşiyəsinin stilizə olumuş bitki, heyvan və quş təsvirləri, eləcə də insan fiqurlu səkkiz kiçik medalyonla bəzədilməsidir. Qeyd etmək lazımdır ki, həmin medalyonların üçündə Şərq poeziyasının parlaq ulduzları - Firdovsi, Sədi və Hafiz görüntüyə gətirilmişdir. Qalan beş medalyon isə Nizami Gəncəvnin "Leyli və Məcnun" və "Xosrov və Şirin" poemalarından, eləcə də "Bibliya"dan götürümüş süjetlərlə bağlıdır. Xalının bədii həllini miniatür rəngkarlığı estetikasının realizm prinsipləri ilə zənginləşdirilməsi səciyyələndirir. Yeri gəlmişkən deyək ki, "İlin fəsilləri" tipli xalçalar o qədər də çox deyildir. Onlardan üçü Azərbaycandadır. Biri yuxarıda şərh etdiyimiz xalıdır, qalan ikisi isə Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində saxlanılır. Həmin sənət əsərlərindən birində kompozisiya ənənəvi olaraq dörd bərabər hissəyə bölünmüşdür. Xalının ara hissəsində əmək adamlarının ilin müxtəlif fəsillərdəki fəaliyyəti görüntüyə gətirilmişdir. Dörd kənarında yerləşən medalyonlarda "Adəm və Həvva", "Musa və Sina dağı", İbrahimin qurban verilməsi" və "Musanın çobanlıq etməsi" süjetləri təsvir olunmuşdur. Xalının iri haşiyəsində - medalyonların daxilində isə müxtəlif tarixi əhəmiyyətli süjetlərdən istifadə edilmişdir. Burada qədim əfsanələrdən bizə tanış olan obrazlarla yanaşı Şərqin çox məşhur şairlərinin portretləri verilmişdir. Nizami Gəncəvi, Ömər Xəyym, Firdovsi, Hafiz, Qaani və Sədinin təsvirləri bu qəbildəndir. Ümumi kompozisiyada Təbrizdəki Göy məscidin yer alması da xalıda vurğulanan tarixiliyin gücləndirilməsi məqsədi daşıyır. Bütün bu təsvirlərin önəmli xüsusiyyəti isə klassik

miniatür rəngkarlığı estetikasına realizm çalarları qatmaqla, bütün görüntülərin inandırıcılığının qabarıqlığına nail olmaqdır. Qeyd edək ki, bu prosesdə realizmə meyllilik xalça estetikası üçün səciyyəvi olan stilizə və dekorativlikdən keçdiyindən,yaradılmış bədiilik gözoxşayandır.

XİX əsrdə xalçalardan başqa ərsəyə gətirilmiş müxtəlif toxuculuq nümunələrində də miniatür rəngkarlığının estetikasından istifadəyə rast gəlirik. Bu mənada Azərbaycan Milli İncəsənət Muzeyinin kolleksiyasındakı qələmkarlıq nümunəsinin adını çəkmk olar. Təbrizdə hazırlanan və divarı bəzəmək üçün nəzərdə tutulan bu bəzək nümunəsi maraqlı kompozisiyaya malikdir. Şaquli kompozisiya öz - özlüyündə üç hissəyə bölünmüşdür. Bu cür bölünmə, yəni, üst - üstə sıralanma prinsipi ilə özünün həm də klassik miniatür rəngkarlığı ənənələrini davam etdirdiyini nümayiş etdirən bəzəyin yuxarı hissəsində üfüqi olaraq görüş səhnəsi təsvir olunub. Atın belində görüntüyə gətirilmiş başı haləli qadının və onu müşaiyət edənlərin müdrik qocanın görüşünə gəlməsi baş verənlərin əhəmiyyətindən xəbər verir. Aşağıdakı iki sırada isə vəhşi heyvanların ovlanması görüntüyə gətirilmişdir. Ürəkaçan mənzərə fonunda bəyaz yerlikdə təqdim olunan süjetlər rəng yığcamlığı, ifadəli və dinamikliyi ilə cəlbedicidirlər.

Azərbaycan Milli İncəsənət Muzeyinin kolleksiyasına məxsus olan digər bir qələmkarlıq nümunəsi isə onun yaradıcısının təxəyyül genişliyini əks etdirir. Belə ki, bu canamazda miniatür rəngkarlığının tətbiq olunduğu digər sahələrdə rast gəldiyimiz flora elementlərinin daha dekorativ, estetik tutumuna görə heyrətamiz sayıla biləcək bədii ifadəsi ilə qarşılaşırıq. Mərkəzi hissədəki mürəkkəb forma-biçimli gül - çiçəyin, eləcə də onun iki tərəfdən əhatələyən sərv ağaclarının ifadə estetikasında əlyazma və keramika miniatürlərinü üstələyə biləcək incəliyi müşahidə etmək mümkündür. Respublikamızın baş sənət saxlancında qorunan daha bir sənətkarlıq nümunəsində - yəhər üstüdə yuxarıda vurğuladığımız yüksək icra mədəniyyətinin fərqli və özünəməxsus ifadəsini görürük. XIX əsrin sonlarında Təbrizdə mahud üzərində təkəlduz texnikası ilə ərsəyə gətirilmiş yəhər üstünün kompozisiyası mürəkkəbliyi ilə seçilir. Belə ki, tikmə nümunəsinin zolaqlarda ifadə olunmuş naxış örtüyünü insan, günəş, heyvan, gül - çiçək təsvirləri təşkil edir. Düzbucaqlı forma - biçimə malik olan yəhər üstünün enli - mərkəzi zolağında atlı, onu iki tərəfdən əhatələyən günəş və heyvanın şux rənglərlə ifadə olunmuş ümumi görüntüsündə bir-birini tamamlayan bədii axıcılıq duyulmaqdadır. Qara mahudla təzad təşkil edən və bunun sayəsində qabarıqlığı vurğulanan təsvirlərin yaratdığı cəlbedicilik yaddaqalandır. Azərbaycan Milli İncəsənət Muzeyinin kolleksiyanı bəzəyən daha bir tikmədə də miniatür rəngkarlığı estetikasından istifadəni müşahidə etmək mümkündür. Sənətkarlar diyarı Şəkidə ərsəyə gətirilmiş bu təkəlduz nümunəsinin quş, gül - çiçək və müxtəlif naxışlardan tərtib olunmuş dekorunda müşahidə etdiyimiz bədii stilizə və ümumiləşdirmələr heç şübhəsiz, miniatür kimi əhatəli estetik dəyərdən faydlanmanın, onun ifadə potensialının nəhayətsizliyinin nümayişidir. Əvvəlki dövrlərdə olduğu kimi XIX yüzillikdə də metalişləmə sahəsində miniatür estetikasını səciyyələndirən incə və axıcı xətlərdən istifadəni müxtəlif funksiyalı hər bir əşyanın ümumi tutumuna özünəməxsusluq bəxş etməyə yönəldən sənətkarlar, bununla da ilk baxışda sərt görünən səthlərə özünəməxsusluq bəxş etməyə nail olmuşlar. Bunu dünyanın müxtəlif sənət saxlanclarında qorunan metalişləmə nümunələri də təsdiqləyir. Bu mənada Azərbaycan Milli İncəsənət Muzeyinin kolleksiyasındakı bir - neçə bədii sənətkarlıq əsərini adını çəkmək olar. Onlardan biri misdən hazırlanmış qəlyan küpüdür. Düzbucaqlı formaya

malik olan bu nümunənin üzərində cızma texnikası ilə gerçəkləşən təsvirlər icra incəliyi ilə diqqət çəkir. Küpun oturacağından ağzına kimi davam edən naxış örtüyü ornamentlərlə insan fiqurlarının əvəzlənməsi ilə davam edir. Əşyanın oturacağını dövrələyən nəbati ornamentin üzərindəki enli zolaqda yer alan insan fiqurlarının səth boyu yerləşdirilməsi də özünəməxsusdur. Belə ki, əgər cəmiyyətdə müəyyən nüfuz daşıyıcısı olduğu geyimindən və taxtda oturuşundan bəlli olan fiqur zolağın bütün hündürlüyü boyu verilibsə, onun qonşuluğundakı əyanların fiqurları üst - üstə görüntüyə gətirilmişdir. İnsan fiqurları qabın boğaz hissəsində də yer almışdır. Bütünlükdə, bu əşyanın bədii dəyər qazanmasında vurğuladığımız təsvirlərin miniatür rəngkarlığı estetikasına müvafiq işlənməsinin böyük rolu olmuşdur.

Azərbaycan Milli İncəsənət Muzeyində qorunan məcməyi isə bənzərsiz bədii tutumuna görə Azərbaycan metalişləmə sənətinin unikal nümunələrindən hesab olunmağa layiqdir. Diametri 79 sm olan bu mis məcməyi üzərində cızılmış təsvirlər məcmusu ilk növbədə mürəkkəbliyi ilə diqqət çəkir. Bu mürəkkəb kompozisiyasının dominantını dairə içərisinə çəkilmiş sarayda əyləncə məclisi təşkil edir. Amma məcməyinin təsvir elementləri bununla məhdudlaşmır. Belə ki, nəbati naxışlarla əhatələnmiş bu təsvir öz davamını qalan hissələri tutan kiçik xonçaların daxilində tapmışdır. Bu çoxsaylı təsvirlərdə saray həyatı, hökmdar və onun ətrafının əyləncələri, ov səhnələri və digər süjetlər miniatür rəngkarlığı estetikasına tapınmaqla gerçəkləşdiyindən, bütünlükdə, məcməyinin axıcı ritmə və cizgi - rəng təzadına əsaslanan dekor tutumu heyrətdoğurucu qəbul olunur...

Miniatür rəngkarlığının XVIII - XIX əsrdə Avropa rəssamlığı ənənələri ilə qovşağından yaranan "Qacar üslubu"na xas olan realistik - gerçəkçi cizgiləri bizim dövrə gəlib çatmış qəlyan başlıqlarının bəzəklərində görmək olar. Bir qayda olaraq ənənəvi forma - biçimi tünd göy rənglə qızılının qovşağına bələnən bu qəlyanların əsas diqqətçəkən hissələrindən birinin onun başlığı olduğunu nəzərə alan istehsalçılar, bilavasitə, bu yerin daha cəlbedici olmasına çalışırdılar. Elə həmin hissələrin gözoxşayan portretlərlə bəzədilməsi ənənəsi də buradan qaynaqlanmışdı. Elə təhlilə cəlb olunan bir - neçə qəlyanın üzərində gənc qızların və ailənin təsviri də dediklərimizi təsdiqləmək gücündədirlər. Bu təsvirlərin öz - özlüyündə həm də qızılgül və nəbati naxışlarla əlaqəli verilməsi də məqsədli olub, bütünlükdə, ümumi görüntünün ürəkaçan olması istəyindən irəli gəlmişdir.

Sərdar sarayında istifadə olunan digər məişət əşyalarının dekorunda da onun yaradıcılarının "Qacar üslubu"nun estetikasından özünəməxsus tərzdə istifadə etdikləri görünməkdədir. Bunu XIX əsrdə ərsəyə gətirilmiş müxtəlif boşqablar, nəlbəkilər, sürahilər, dibçəklər və kaşılar da bunu təsdiqləyir. Diametri 35 sm-ə çatan həmin boşqablardan birinin özünəməxsus kompozisiyası vardır. Sarayda əyləncə məclisini təsvir edən və naxışlardan "hörülmüş" dairə ilə əhatələnmiş kompozisiya müəllif tərəfindən üfüqi olaraq iki hissəyə bölünmüşdür. Yuxarının bəyaz - yaşıl, aşağının isə göyümtül - yaşıl rəngi ilə yaradılmış təzad da, həm də əylənənlərlə əyləndirənlərin bir - birindən fərqləndirilməsi baş tutmuşdur. Lakin bu təzadda həm də əylənənlərin yuxarıdakı fiqurlarının ifadəliliyi ilə çalıb -oxuyanların və rəqs edənlərin səth boyu səpələnmiş fiqurlarının ovqatyaradıcı bədii bütövlüyü duyulmaqdadır. Bütün kompozisiyanın incəliyini isə görüntünün hər bir ünsürünün miniatür rəngkarlığı estetikasına müvafiq həll olunması şərtləndirmişdir.

## Ədəbiyyat:

1. Fərzəliyev Ç. Azərbaycan el sənəti. Bakı, 2013. 410 səh.
2. Zamanov N. Nizami poeziyası və təsviri sənət. Bakı. 1981, 150 səh. 7
3. Əfəndi R. Azərbaycan incəsənəti. Bakı. 2007,s. 282.
4. Əfəndiyev R. Azərbaycan bədii sənətkarlığı dünya muzeylərində. Bakı, 2009. 232 səh. 9
5. Əfəndiyev R. Azərbaycan xalq sənəti. Bakı. 1984, 233 səh.
6. Əfəndi R. Azərbaycan dekorativ-tətbiqi sənətləri. Bakı.1978,190 s. 10
7. Əfəndi R. Azərbaycan el sənəti. Bakı. 1971,78 səh.
8. Milli Azərbaycan Tarixi Muzeyinn kolleksiyasının inciləri. Bakı. 2010, 256 səh.
9. Гаджар Ч. Искусство Азербайджана. Средние века. Баку. 2003. с.346.

**Севиндж Курбанова**

### Проявление новых художественных тенденций в декоре декоративно-прикладного искусства XIX века

Статья посвящена изучению истории становления и развития декоративно-прикладного искусства. Эта проблема была выбрана как объект исследования, на основе XIX века, который считается важным поворотным моментом в истории развития этого искусства  События начала XIX века, сопровождавшиеся значительными изменениями в общественно-политической жизни Азербайджана, также привели к развитию новых художественных тенденций в декоре прикладного искусства. Эти нововведения и изменения привели к включению западноевропейских и российских тенденций в эстетику декоративно-прикладного искусства. Можно наблюдать появление новых тенденций в развитии декоративно-прикладного искусства, таких как ковроткачество, шитье и т.д. В статье эти вопросы были подробно изучены на основе конкретных примеров.

**Ключевые слова**: художественный металл, ковер, живопись, иллюстрация, миниатюра, сюжет, декор.

**Gurbanova Sevinj Vagif gizi**

### The appearance of the new artistic inclinations in the decor of the 19th century decorative-applied art samples

The article is devoted to the study of the history of the formation and development of arts and crafts. This problem was chosen as an object of study on the basis of the 19th century, which is considered an important turning point in the history of the development of this art. Events of the beginning of the 19th century, accompanied by significant changes in the socio-political life of Azerbaijan, also led to the development of new artistic trends in decor of applied art. These innovations and changes led to the inclusion of Western European and Russian trends in the aesthetics of decorative art. One can observe the emergence of new trends in the development of arts and crafts, such as carpet weaving, sewing, etc. In the article, these issues were studied in detail based on specific examples.

**Key words:** artistic metal, carpet, painting, description, miniature, plot, decor.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 17.05.2019**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 24.05.2019**
**Məqalənin çapa qəbul olunma tarixi: 24.06.2019**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru Sevil Kərimova**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2019-cu il, 09 saylı qərarı ilə çap olunur**